TƏSDİQ EDİLMİŞDİR
Azərbaycan Respublikası
Səhiyyə Nazirliyi
Farmakoloji və Farmakopeya
Ekspert Şurasının sədri

________________ E.M.Ağayev

"10" may 2018-ci il

Dərman vasitəsinin istifadəsi üzrə təlimat (xəstələr üçün)

**İNFLUSİD** tabletlər
INFLUCID®

**Tərkibi**
*Təsiredicimaddə:* 1 tabletin (250mq) tərkibində 25 mq Aconitum (dərman akoniti) trit. D3, 25 mq Bryonia (ikievli küstüşam) trit. D2, 25 mq Eupatorium perfoliatum (Asırqalotu) trit. D1,
25 mq Gelsemium (həmişəyaşıl gelsemium) trit. D3, 25 mq Ipecacuanha (ipekakuana) trit. D3, 25 mq Phosphorus (fosfor) trir. D5 vardır.
*Köməlçi maddələr:* laktoza monohidrat, maqnezium-stearat, buğda nişastası.

**Farmakoterapevtik qrupu**
Homeopatik dərman vasitəsi.
**ATC kodu:** R05X.

**Farmakoloji xüsusiyyətləri**
Homeopatik terapiya, xəstəlik anlayışında və dərman substansiyalarının istifadəsinə münasibətdə ənənəvi tibbi terapiyadan seçilir. Homeopatik vasitələr orqanizmin müdafiə gücünü stimullaşdırır və beləliklə özünümüalicə potensialını aktivləşdirir. Homeopatik vasitələrə qarşı orqanizmin cavabı qəti şəkildə fərdidir. Bu səbəbə görə dozaspesifik farmakoloji effektlər, farmakodinamik və ya farmakokinetik məlumatlar müəyyən edilə bilməz.

**İstifadəsinə göstərişlər**
Yuxarı tənəffüs yollarının qripəbənzər və digər kəskin virus infeksiyalarının müalicə və profilaktikası.

**Əks göstərişlər**
Preparatın istənilən komponentinə və ya Eupatoricum perfoliatuma və ya digər mürəkkəbçiçəklilər fəsiləsinə aid bitkilərə qarşı yüksək həssaslıq.

**Xüsusi xəbərdarlıqlar və ehtiyat tədbirləri**
Preparatın tərkibində laktoza və buğda nişastası vardır. Qalaktozaya qarşı dözümsüzlüyü, laktaza çatışmazlığı və ya qlükoza-qalaktoza malabsorbsiyası kimi nadir irsi xəstəlikləri olan pasiyentlərə preparatdan istifadə etmək olmaz. Buğda nişastasının tərkibində qlüten ola bilər (ancaq izi görünə biləcək qədər), bu səbəbə görə seliakiyalı pasiyentlərdə təhlükəli deyil. Buğdaya qarşı allergiyası olan pasiyentlər (seliakiyadan fərqlənir) preparatdan istifadə etməməlidirlər.
Aşağıdakı hallarda həkimə müraciət etmək lazımdır:

- xəstəliyin simptomları azalmadıqda və ya pisləşdikdə;
- əlavə şikayətlər meydana çıxdıqda;
- bədən temperaturu saxlandıqda və ya 39°C-dən yüksək olduqda.

**Digər dərman vasitələri ilə qarşılıqlı təsiri**
Digər dərman vasitələri ilə qarşılıqlı təsiri məlum deyil.
Homeopatik dərman vasitələri ilə müalicə digər dərman vasitələrinin qəbulunu istisna etmir.
Eyni vaxtda digər dərman vasitələrinin qəbuluna ehtiyac olduqda, həkimlə məsləhətləşmək lazımdır.

**Hamiləlik və laktasiya dövründə istifadəsi**
Bütün digər preparatlar kimi, İnflusidi də hamiləlik və laktasiya dövründə, yalnız müvafiq həkim məsləhəti olduqda istifadə etmək olar.

**Pediatriyada istifadəsi**
Preparatı 1 yaşdan aşağı uşaqlara təyin etmək olmaz, belə ki, bu yaş qrupunda preparatın istifadəsi kifayət qədər öyrənilməmişdir.

**Nəqliyyat vasitələrini və digər potensial təhlükəli mexanizmləri idarəetmə qabiliyyətinə təsiri**
Preparat nəqliyyat vasitələrini və digər potensial təhlükəli mexanizmləri idarəetmə qabiliyyətinə mənfi təsir etmir.

**İstifadə qaydası və dozası**
*Dozalanma rejimi*
*Böyüklər*
Kəskin vəziyyətdə, simptomların yaxşılaşmasına qədər hər 1 saatdan bir 1 tablet qəbul edilir. Preparatı gün ərzində 12 tabletdən çox istifadə etmək olmaz. Sonrakı müalicədə gündə 3 dəfə 1-2 tablet təyin edilir.
İnfeksiyaların profilaktikası məqsədilə gündə 3 dəfə 1-2 tablet istifadə edilir.
*Pediatrik qrup*
*1-11 yaşlı uşaqlar*
Kəskin hallarda, simptomların yaxşılaşmasına qədər hər 2 saatdan bir 1 tablet təyin edilir. Gün ərzində 8 tabletdən artıq qəbul etmək olmaz. Sonrakı müalicədə gündə 3 dəfə 1 tablet təyin edilir.
*12 yaşdan yuxarı uşaqlar*
Kəskin hallarda, simptomların yaxşılaşmasına qədər hər 1 saatdan bir 1 tablet qəbul edilir. Gün ərzində 12 tabletdən artıq istifadə etmək olmaz. Sonrakı müalicədə gündə 3 dəfə 1-2 tablet təyin edilir.
İnfeksiyanın profilaktikası məqsədilə 12 yaşa qədər uşaqlar gündə 3 dəfə 1 tablet, 12 yaşdan yuxarı uşaqlar gündə 3 dəfə 1-2 tablet qəbul etməlidirlər.

İstifadə qaydası
Preparatı yeməkdən ya 30 dəqiqə əvvəl, ya da 30 dəqiqə sonra qəbul etmək lazımdır. Tabletlər tədricən ağız boşluğunda əriyir. Azyaşlı uşaqlara tabletləri xırdalayıb və bir qədər suda həll edərək vermək olar.

**Əlavə təsirləri**
Çox nadir hallarda (< 1/10000) və ya məlum olmayan (əldə olan məlumatlara görə tezliyi qiymətləndirmək mümkün deyil):
Hiperhəssaslıq reaksiyaları, məsələn, dəridə səpgi və mədə-bağırsaq pozulmaları. Belə hallarda preparatın qəbulunu dayandırmaq və həkimə müraciət etmək lazımdır.
*Qeyd*

Homeopatik dərman vasitələrinin istifadəsi zamanı müvəqqəti olaraq ilkin pisləşmə mümkündür. Bu zaman İnflusidin istifadəsini dayandırmaq və həkimlə məsləhətləşmək lazımdır.

**Doza həddinin aşılması**
Müəyyən edilməmişdir.

**Buraxılış forması**
Tabletlər. 60 tablet qutuda (3 blister 20 tabletdən) içlik vərəqə ilə birlikdə karton qutuya qablaşdırılır.

**Saxlanma şəraiti**
15°C - 25°C temperaturda orijinal qablaşdırmada, uşaqlardan qorunan yerdə saxlamaq lazımdır.

**Yararlılıq müddəti**
5 il.
Yararlılıq müddə ti bitdikdən sonra istifadə etmək olmaz.

**Aptekdən buraxılma şərti**
Reseptsiz buraxılır.

**İstehsalçı**
Doyçe Homeopati-Yunion DHU- Arznaymittel QmbH&Ko.KQ
Almaniya, 76227 Karlsrue, Ottoştrasse 24.
Tel.: +49(721) 40 93 236

Deutsche Homoopthie-Union DHU-Arzneimittel GmbH & Co.KG
Germany, Karlsruhe 76227, Ottostrasse 24
Tel. +49 (721) 40 93 236

Doktor Vilmar Şvabe QmbH&Ko.KQ, Almaniya.
Karlsrue 76227, Vilmar Şvabe Ştrasse 4.
Tel.: 49 (0) 721 40 050; +49 (0) 721 40005 165

Dr. Willmar Schwabe GmbH & Co.KG
Germany, 76227 Karlsrue, Willmar-Schwabe-Str. 4
Tel. +49 (0) 721 4005 0, + 49 (0) 721 40005 165